

CEYHUNƏ MEHMANQIZI

### SADƏCƏ UNUT

Daha gözlərini çək üzərimdən,
Bütün ümidləri puç elə, bir-bir.
Görürsən bir təhər yaşayıram mən,
Məni öldürməyə səsin bəs edir.

Əgər ürəyində hələ varamsa,
Məni ürəyində boğ elə indi.
Əgər xatirəndə yaşayıramsa,
Məni xatirəndən yox elə indi.

Adın gələn yerdən qaçıb gedirəm,
Qorxuram gözümdən oxunar adın.
Mənsiz əhvalını təsvir edirəm,
Bilirəm, necədir indi həyatın.

Uzaqdan-uzağa gəzirsən məni,
Uzaqdan-uzağa itirdiyin tək.
Qəlbində danlayıb üzürsən məni,
Guya danlamasan nə dəyişəcək?

Bir insafın olsun, rəhm eylə daha,
İndi ünvanını, yolunu düz tut.
Səni and verirəm o bir Allaha
Unut! Daha unut! Sadəcə unut!

### BİLİRSƏN NECƏ OLUR?

Bilirsən necə olur,
Ürəyi səksəkəli,
gözləri açıq yatmaq?
Ürəyinin səsindən,
Ya da öz nəfəsindən
diksinib gecə yarı,
can verən ümidlərlə
qaçmaq qapıya sarı...
Bilirsən necə olur,
Biləyinin yerinə
ümidlərini kəsmək?
Bütün xəyallarını
bir gecədə doğramaq?
Yada salıb torpağın
səndən aldıqlarını,
Bilirsən necə olur
ölüm üçün darıxmaq?
Bilirsən necə olur,
Sənə aid olanı
bir suç kimi gizləmək,
Özündən itkin düşüb,
özündən firar etmək?
Bilirsən necə olur,
gəlməyəcəyini bilib
yol gözləmək hələ də?
Sonra...
Bircə günün içində
xəyalını boşamaq
Bilirsən necə olur
Səni sənsiz yaşamaq?
Bilirsən necə olur?
Bilmirsən, heç bilmə də...

### CAVABSIZ SUALLAR ÜŞÜDÜR MƏNİ

Bir ömür beləcə keçib, gedəcək,
Desək də, "ay ömür astadan yeri"
Hərə öz yolunu seçib, gedəcək,
Bir də dönməyəcək, ötənlər geri.

Hardasa yoluna çıxacaq biri,
Qəlbinə, yoluna bir iz düşəcək.
Sənin taleyinə dağlar, dərələr,
Mənim taleyimə dəniz düşəcək.

Bizi qocaltmadı birlikdə zaman,
Ömrünə gününə tən olmayacam.
Evində yolunu, gözləyən insan,
Özgəsi olacaq, mən olmayacam.

Üzdə gülümsəyib, şad olsan belə,
Qəlbində özünü hey yeyəcəksən.
Birgə dostlarımız, qohumlarımız,
Məni soruşsalar nə deyəcəksən?

Cavabsız suallar üşüdür məni,
Apar, saçlarıma ələnən, qarı.
Mən səni bir daha görməyəcəm ki,
Deyim, getdiyinə dəydimi barı?!

### MƏNİM TALEYİMİ OĞURLAYAN QIZ

Mənim taleyimi oğurlayan qız,
Söylə razısanmı öz əməlindən?
Ömrümdən qoparıb aldığın kəsi,
Qorxmursan alalar bir gün əlindən?

Mənim taleyimi oğurlayan qız,
Qəlbini şübhələr indi yeyirmi?
Mənə gecə-gündüz dediyi sözü
Sənə də deyirmi? Səni sevirmi?

Mənim taleyimi oğurlayan qız,
Varlığın sevgimi dana bilərmi?
Mənim taleyimdə sönən arzular,
Sənin taleyində yana bilərmi?

Mənim taleyimi oğurlayan qız,
İndi mən yalanam, sən isə gerçək.
Sənə oğurluğu həyat öyrədib,
Sənə cəzanı da həyat verəcək.

### QAYITMA

Mənə qayıtmağı düşünmə bir də,
Gedib, ayrılığı özün seçmisən.
Hardasa qalmısan xatirələrdə,
Fəqət, taleyimə çox gecikmisən.

Get səni bir daha görməsin gözüm,
Sus! Bircə kəlmə də sözün olmasın.
Məndə gəlişinə qalmayıb dözüm,
Sənin də gəlməyə üzün olmasın.

Atdın əllərinlə məni odlara,
Odumu sovurdun külümə dəymə.
Məni diri-diri qoydun məzara,
Canımı almısan, ölümə dəymə.

### MƏN ƏZABAM, MƏN KƏDƏRƏM

Mən əzabam, mən kədərəm, ağrıyam,
İz qoyduğum yerdə ölüm cücərər.
Zülmətlərin od püskürən bağrıyam,
Taleyimin rəngindədir gecələr..

Mən günaham, nasılaram boynundan,
Tabın olmaz daşımağa yükümü.
Baş açmazsan təbətin oynundan,
"Simruq" sanıb, yandırarsan tükümü.

Mən nisgiləm, gözlərinə hoparam,
Çarəsizcə dözüb, dözüb, susarsan,
Mən tufanam ürəyində qoparam,
Sən özün yellərimdən asarsan.

Dəhşətlidir, bütün sirrli qadınlar,
Aça bilsən bu sirri çöz, aç adam.
Hələ sənin düşünməyə vaxtın var,
Məni sevmə! Məndən uzaq qaç, adam!

### BU GÜN AD GÜNÜDÜR SƏNSİZLİYİMİN

Bu gün taleyimdə yollar dolaşıb,
Ayrılıq günüdü, hicran günüdü.
Bəlkə də, təqvimlər yanılıb, çaşıb,
Bu gün sənsizliyin il dönümüdü...

Sənsizlik, zülümdə, zillət də olsa,
Göz yuma bilmədim o səhvinə mən.
Süzdüm göz yaşımı, boş badələrə,
İçdim sənsizliyin şərəfinə mən.

Silib gözlərimi, gülüm, oynayım,
Çoxda ki, ömrümü həsrət bürüyür.
Bu gün ad günüdür sənsizliyimin,
Bu gün sənsizliyim bir yaş böyüyür.

* * *

Bunumu gözləyirdən illər uzunu,
Verdiyin sözləri beləmi tutdun?
Gözündə qoymadı tale arzunu,
Unutmaq istədin və sən unutdun.

Unutmaq deyirəm; Sevmişdinmi heç?
Yoxsa yollar təki keçmişdin məni?
O şikəst sevginə əl ağacıydım,
Tutuna bilməkçün seçmişdin məni...

Nə deyim, ayağın yer tutur indi,
Daha mən adında əl ağacın yox.
Səni başqaları ovudur indi,
Mənim təsəllimə ehtiyacın yox.

Mən səni sevgimlə yaşatdım,f əqət,
Sən məni həyatdan bezar eylədin.
Mən sənin dunyanda saray yaratdım,
Sən mənə dünyanı məzar eylədin.

### MƏNİ UZAQLARDA AXTARMA DAHA

Fikrin uzaqlarda dolaşır yenə,
Baxma uzaqlara, dalma dərinə.
Axtarsan sən məni, bax gözlərinə.
Məni uzaqlarda axtarma daha.

Saçının tumarı xəfif bir mehəm,
Yanağın isladan bir damla şehəm.
Bəlkə də, ömründə ən böyük səhvəm,
Məni uzaqlarda axtarma daha.

Demirəm, yolunda, izində axtar,
Yanan ocağının közündə axtar.
Axtarsan sən məni, özündə axtar,
Məni uzaqlarda axtarma daha.

### SƏNSİZLİK

Sən qoxuyan bu evdə mən,
Sənsizliklə bir otağı bölüşürəm.
Səsin gəlir divarlardan,
Güzgülərdən boylanırsan.
Ehh, haldan-hala düşürəm.
Düşmən olub öz gözlərim,
Öz əllərim ayaqlarım.
Düşmən olub indi mənə,
Özgələrim, doğmalarım.
Gözlərimdən "yuxu" deyil,
Hələ də "sən" tökülürsən.
Ürəyimdə "İsa" kimi
Çarmıxlara çəkilirsən.
Xarabə qalmış şəhərəm,
Bayquşlar yurd salıb məndə.
Çılpaq, viran küçələrdə,
Sanki sənsizlik yazılıb.
Hər ağacdan, hər budaqdan,
Bir cüt "sənsizlik" asılıb.

### SƏNİ BELƏ SEVDİM

Bircə gülüşüylə güldümü üzün,
Ağlasa, dünyan qara geydimi?
Sınmaz qururunu, dağ qururunu,
Məhəbbət əydimi, həsrət əydimi?

Bir anın içində yayın qış olub,
Ömrünə çovğunu gətirdinmi sən?
Sevib, qəlbindəcə böyütdüyünü,
Bir səhər oyanıb, itirdinmi sən?

Bir günün içində belin bükülüb,
Siyah tellərinə qar ələndimi?
Körpə arzuların, ümidlərin de,
Gözünün önündə güllələndimi?

Demə ki, taleyə bəxtə küsmüşəm,
Qurumur gözümün yaşı, ay adam.
Mən əzəl gündən daşı sevmişəm,
Səndə sevmisənmi, daşı, ay adam?

# Qürur dolu dörd gün



Qarabağ... Bizim görməyə, quşlarının səsini duymağa, havasını doyaraq udmağa, o müqəddəs torpağına bir dəfə olsun toxunmağa həsrət qaldığımız yurdumuz.

Uzaqdan sevmək - elə bir hiss, elə bir duyğudur ki... Bir addım qədər yaxınlığında olsa belə, ayaq basa bilməmək. Bu həsrəti hər zaman ürəyimizdə daşımaq. Bir yara kimi - hara getsək də, qanayan bir yara. Özü də hər hansı bir yerdə deyil, ürəyimizin ən dərinində.

Bəlkə də illərdir qanamasının səbəbi budur. Gözlədik, səbr etdik. Hər dəfə ümidlə "Bəlkə bu gün?" dedik. Amma hər dəfə ümidlərimizin boşa çıxmasının acısı zamanla içimizə yığıldı.

2 apreldə yeni bir döyüş xəbəri alanda, narahat olur, digər tərəfdən isə "Bəlkə torpaqlarımıza qovuşacağımız gün bu gündür?" deyə düşünürdük. Şəhid xəbərləri hamımızı üzdü. Amma qəmginlikdən başqa da bir hiss vardı içimizdə: qürur. Acı dolu, içinə göz yaşları axmış bir qürur. Birdən-birə elə bir xəbər aldıq ki, sanki məlhəm oldu: torpaqlarımız alınmışdı. Az da olsa, alınmışdı. O gənc uşaqların qanı yerdə qalmamışdı. Sonunda o qüdrətli, şanlı ordumuz öz gücünü sadəcə ermənilərə deyil, bütün dünyaya isbatladı.

Yurdumun dörd bir yanında bayraqlarımız asıldı. Axan şəhid qanları bayrağımızı daha da şərəfləndirdi. Millətimiz bir anda sanki yumruq kimi birləşdi. Dünyadakı türk-müsəlman qardaşlarımız bizə dəstək oldular. Türkiyəmizlə hər zaman bir millət olduğumuzu və hər zaman olacağımızı bütün dünyaya göstərdik.

Dörd günə həyatımız çox dəyişdi. Sevincin qorxuya, qorxunun qürura qarışdığı dörd gün yaşadıq biz. Daha da şərəfləndik, daha da gücləndik. Bu dörd gündə tariximizə yeni səhifələr yazıldı.

Bir daha sübut olundu ki, bayrağı bayraq edən üstündəki qandır, torpaq uğrunda ölən varsa, vətəndir!

**Fidan Əliyeva**
**Bakı Atatürk liseyinin 8-ci sinif şagirdi**